SOLAKZADƏ MEHMED

# TARİX

QANUN NƏŞRİYYATI

Mehmed Solakzadənin yazdığı, akademik Ziya Bünyadovun dilimizə və tarix elmimizə qazandırdığı "Tarix" kitabı Səfəvi xanədanını, qızılbaşları, Şah İsmayılı və onun tərəfdarlarını fərqli tərəfdən oxucuya tanıdır. Bu kitabda İran mənbələrinə əsaslanan və Səfəvi dövlətini, həmçinin qızılbaşları ucaldan mənbələrdə daim şanına təriflər deyilən Şah İsmayıla və qızılbaşlara qarşı müəllifin bir qədər qəzəbli və qərəzli münasibəti başa düşüləndir. Ömrünü Osmanlı sarayında keçirən Mehmed Solakzadə hadisələrə Osmanlı saray adamlarının prizmasından baxdığı üçün Şah İsmayılı lənətlə yad etməkdən çəkinmir.

**Solakzade Mehmed. Tarix**
Bakı, Qanun Nəşriyyatı, 2023, 144 səh.

Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 04.05.2023

Redaktor: Cəlil Cavanşir
Korrektorlar: Ramilə İsayeva, Aygün Həsənova
Texniki redaktor: Xəyalə Şirinli
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizayn: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-619-6

© Qanun nəşriyyatı, 2023
© Solakzade Mehmed, 2023

## MÜQƏDDİMƏ

İndiyə qədər XVI-XVII əsrlər dövrünü öyrənən və tədqiq edən tarixçilərimiz əsas etibarilə farsdilli mənbələrin verdikləri məlumatlarla kifayətlənib, Osmanlı mənbələrinə, demək olar ki, heç bir əhəmiyyət verməyiblər. Buna görə tarixçilərimizin bu dövrə aid əsərləri birtərəfli və əksər hallarda qərəzli olub. Oxucular bilməlidirlər ki, Səfəvi şahları və qızılbaşlar Azərbaycan ərazisində (xüsusən Şirvanda) yerli əhalini həmişə düşmən hesab edib bu torpaqlarda özlərini işğalçı kimi apararaq yalnız qarət və talanla məşğul olurdular. Səfəvilərin cədlərinin Şirvanda öldürülməsi qızılbaşlara burada vəhşiliklərin törədilməsi üçün haqq qazandırırdı. Bu vəhşilikləri ən çox Azərbaycanın dağ mahallarında görürük. Əbəs yerə deyil ki, Qərb alimləri Səfəvi dövlətinin gizli xidmət idarəsinin fəaliyyətini "Çeka"nın işi ilə müqayisə edirlər...

XVI-XVII əsrlərə aid yazılan kitablar Azərbaycanın yalnız siyasi və hərbi tarixinə aiddir. İqtisadi və-

ziyyətdən heç bir şey deyilmir, bu da ölkədə mövcud olan Səfəvilər üsuli-idarəsinin yalnız qarətlə məşğul olmasından doğur.

Söz yox ki, osmanlılar da Azərbaycanı işğal edərkən öz xeyirlərini güdürdülər. Lakin osmanlılar bir yeri, kəndi, mahalı və ya ölkəni işğal edən kimi buraya məmurlar göndərib hər şeyi siyahıya alır, vergilər təyin edirdilər. Buna sübut İstanbulda yerləşən Baş Vəkalət Arxivindən gətirdiyimiz və çapa hazırladığımız Gəncə-Qarabağ vilayəti və Naxçıvan sancağının vergi dəftərləridir. Bu dəftərlərdə kənd, oba və şəhərdə yaşayan evli və subay kişilərin siyahısı, bu yerlərdə olan bazar, karvansara, hamam, əkin, bostan və bağ sahələrinin miqdarı və ölçüləri, həmçinin bunlara təyin olunan vergilərin məbləğləri göstərilir. Ölkəmizin XVI-XVII əsrlərdə sosial-iqtisadi vəziyyətinin öyrənilməsi üçün bu mənbələrin xüsusi və fövqəladə yerləri var. İkinci mühüm cəhət: Osmanlı orduları Azərbaycana gəldikdə onlarla birlikdə gələcəkdə osmanlıların fəthlərini, yerlərdə gördüyü işlərini, əhaliylə münasibətlərini və s. qələmə alanlar da gəlirdi. Məhz buna görə də qızılbaş səfəvilərdən fərqli olaraq orta əsr osmanlı müəlliflərin bizə gəlib çatan əsərləri bizim tarixçi tədqiqatçılarımız üçün çox əhəmiyyətlidir.

Bu müəlliflərdən biri Solakzadə Mehmeddir. Onun yazdığı "Tarix"in Azərbaycana aid yerlərini osmanlı dilindən tərcümə edib oxucularımıza təqdim edirəm.

Solakzadə Mehmed (Məhəmməd) Həmdəmi Çələbi – XVII əsrin birinci yarısında yaşamış məşhur Osmanlı tarixçisidir. Həyatının ilk dövrü və ailəsi haqqında çox az şey bilinən Solakzadə Üsküpdən atası ilə İstanbula gəlmişdir. Atasının **solakbaşı**[1] olması dolayısıyla "Solakzadə" ləqəbi ilə şöhrət qazanan Mehmed Həmdəmi Çələbi təqribən 1590-cı illərdə anadan olmuşdur.

Sarayda təhsil almış olduğu ehtimal olunan Mehmed Həmdəmi Çələbinin öz "Tarix"ində saraydan və saray zadəganlarından artıqlaması ilə bəhs etməsi onun Əndərunda (sultan sarayının özündə) təhsil və tərbiyə görmüş olduğunu sübut edir. Müəyyən bir mənsəb və vilayət xidmətlərində olmayan Solakzadə saraydakı hamilərinin sayəsində IV Sultan Murada (1623-1640) həmsöhbət olmuş, hətta onun ölümündən sonra da bu xidmətinə davam etmişdir. Padşahın

[1] Solakbaşı Yeniçəri camaatının 60, 61, 62, 63-cü ortasına verilən ad. Bunlara başçılıq edən dörd piyadaya "Sər solak" və ya "Solakbaşı" deyilirdi. Bu dörd mərkəzdə Sultanın mühafizə dəstələri də yaradılmışdı. Ora yeniçərilər arasından cəsur, güclü, ucaboy, təcrübəli, söz dinləyən, nitq qabiliyyəti olanlar seçilirdilər. Sultanın atının sağında oturan iki solakbaşı ox və yaydan istifadə edərkən sol əllərini; soldakılar sağ əllərindən istifadə edirdilər. Onların əllərindən bu şəkildə istifadə etmələrinin səbəbi Sultana arxa çevirmədən hədəfi vurmaq idi.

həmsöhbəti olaraq yanından ayrılmayan Mehmed Həmdəmi Çələbi məşhur "Tarix"ini IV Sultan Mehmed zamanında qələmə almış, hətta "Fehrist-i Şahan" adlı mənzum əsərini bu padşaha təqdim edib çoxlu iltifatlarına nail olmuşdur.

Bütün yazılı mənbələrə görə, Solakzadə Mehmed Həmdəmi Çələbi 1658-ci ildə İstanbulun Silivri qapısı yanında Seyyid Nizam Dərgahına gedən küçənin sağ başında dəfn edilmişdir.

Solakzadə şair və tarixçi olaraq başlıca üç əsərin müəllifidir. Həmdəmi təxəllüsü ilə yazdığı şeirləri bir divanda toplanmış olsa da, bu divan bu gün mövcud deyildir. Yenə mənzum olaraq yazdığı **"Fehrist-i Şahan"**[1] Sultan I Osmandan Sultan IV Mehmedə qədər gələn padşahların qısaca dövrlərindən bəhs etməkdədir. Solakzadəyə əsl şöhrət qazandıran onun "Tarix"idir. Bu əsər başlanğıcdan 1657-ci ilə qədər Osmanlı dövlətinin tarixini əhatə edir. Mehmed Həmdəmi Çələbi əsərini **Xas odabaşı**[2] Həsən Ağanın təşviqi ilə yazmışdır. Başlıca Osmanlı tarixçilərindən Ruhi, Neşri, Yezdi, Ali, Kəmal Paşazadə, İdris-i Bitlisi və Peçevinin təsirinə məruz qalan Solakzadə, I Sultan Səlimdən etibarən (1512-1520) Xoca Sədəddin Əfəndidən

[1] Bax: Vahid Çabuk. Osmanlı padşahlarının mənzum tarixçəsi, Fehrist-i Şahan. Türk Kültürü Araşdırmaları Dərgisi (Ankara, 1976), XV, səh. 203-226.

[2] Yeniçəri quruluşunda xüsusi sultan alaylarının təntənəli düzəlişlərində komandanlıq edən zabit.

və davamında isə Həsən Bəyzadədən, III Sultan Mehmeddən (1595-1603), sonra da axırına qədər şəxsən öz müşahidələrindən istifadə ilə tamamlamışdır.

Solakzadə zamanında yeni-yeni rəğbət qazanmağa başlayan musiqi ilə də məşğul olmuş, **Misqalı** təxəllüsü ilə böyük şöhrət qazanmışdır.

Quruluş dövründən 1657-ci ilə qədər Osmanlı tarixinin gözəl bir xülasəsini verən Solakzadə “Tarix”i bir çox Osmanlı tarixləri kimi xeyli məşhur olmuş və geniş oxucu kütləsi tərəfindən bəyənilmişdir. Müəllifin üslubunun gözəlliyi, rahatlığı və aydınlığı, hadisələri anlatmaqda ustalığı və mövzuya hakimiyyəti əsərin sevilməsində başlıca səbəb olmuşdur.

XVII əsr Osmanlı tarixi ilə bağlı qiymətli əsərin yazıldığı bir dövr olmuşdur. Bu dövrün tarixçiləri arasında Həsən Bəyzadə, Katib Çələbi, Topçular Katibi Əbdülqədir, Mehmed Xəlifə və b. sayıla bilər. Bunların arasında Solakzadə Mehmed Həmdəmi Çələbi də görkəmli bir mövqeyə malikdir. Onun xüsusilə sarayda vəzifəli olması dövrün paytaxt hadisələri ilə saray içində cərəyan edən hadisələrə dair verdiyi məlumatlar birinci dərəcədə vacibdir.

Solakzadənin “Tarix”i iki hissədən ibarətdir. Birinci hissə öz dövründən qabaq, yəni Osmanlı dövlətinin qurulmasından 1622-ci ilə qədər yazdığı hissə olub. Burada bir çox Osmanlı salnamələrindən istifadə edib bunların müəlliflərinin adlarını da zikr edir.

Bu tarixçilərin arasında Neşri, Ruhi, İdris-i Bitlisi, Ali, Həsən Bəyzadə və b. sayıla bilər. Solakzadə bu tarixçilərin əsərlərindən bəzən xülasə halında faydalandığı kimi, bəzən də olduğu kimi götürmüşdür. Bu hal Həsən Beyzadə tarixindən edilən iqtibaslarda açıq görünür.

Solakzadə "Tarix"inin ikinci hissəsini əhatə edən bölüm isə dövrünə aid yazdıqlarıdır. Bu hissə həm orijinal, həm də etibarlıdır. Çünki bu dövrdə hadisələrin canlı şahidi olan Solakzadə IV Sultan Murad, Sultan I İbrahim (1640-1648) və IV Sultan Mehmedin (1648-1687) səltənətinin ilk illəri ilə bağlı olaraq çox qiymətli məlumatlar verir.

*Bakı, avqust 1992.*
*Akademik ZİYA BÜNYADOV*

## TEYMURUN HÜCUMU NƏTİCƏSİNDƏ BAĞDAD VƏ İRAQ HAKİMLƏRİNİN QAÇMASI VƏ SULTAN BƏYAZİDƏ SIĞINMALARI. TEYMURUN ANADOLUYA GƏLİŞİ, ORDULARIN DÖYÜŞÜ VƏ ANADOLU ƏSGƏRLƏRİNİN QIRILMASI

Bu vaxt (1398-ci il) birdən-birə Bağdad və İraq hakimi olan Sultan Uveysin oğlu Sultan Əhməd Cəlayir[1] ilə Azərbaycan hakimi olan Qaraqoyunlu Məhəmməd bəy oğlu Qara Yusif[2], Teymurləngin əlindən qaçaraq Misir sultanının yanına getdilər. Teymur elçilər göndərərək bunları tələb etdikdə Misir sultanı Bərquq[3] gələn elçiləri qətl etdirdi. Cəlayiri Sultan Əhməd ilə Qara Yusifin də bir müddət keçdikdən sonra

---

[1] Sultan Əhməd Cəlayir 1382-1410-cu illərdə hökmranlıq edib. 1393-cü il ilə 1405-ci illər arasında Teymurləng tərəfindən bir neçə dəfə öz torpaqlarından qovulmuşdur.

[2] Qara Yusif Qaraqoyunlu 1388-ci ildən sultanlıq edib, 1400-cü ildə Teymurləng tərəfindən qovulmuş, 1405-ci ildə yenidən səltənəti alıb. 1420-ci ilədək taxtda idi.

[3] Məmlük sultanı Zahir Seyfəddin Bərquq 1382-1399-cu illərdə hakim olub.

Misir sultanı Bərququn yanında qabaqkı kimi etibarları qalmadığı üçün bir müddət həbs edilmişlər. Vaxt keçdikcə hər biri bir yol taparaq xilas oldular və Bağdada tərəf qaçmağa çalışdılar.

Gəlib şəhərə daxil olduqları zaman məğrur Teymur Gürcüstan tərəfə getməsinə rəğmən Sultan Əhməd Cəlayir heç bir şəkildə əmin olmadığı üçün zəruri olaraq vətənindən ayrılmağı seçdi. Fərah adlı bir yaxınını Bağdadın mühafizəsinə təyin edib, mal və xəzinəsi ilə ailəsini götürüb Qara Yusif ilə birlikdə Sultan Bəyazid xan[1] tərəfinə doğru yola düşdülər.

Fərat çayını keçdikdən sonra Hələb yaxınlığına gəldikdə Misir sultanına bağlı olan Hələb valisi böyük bir ordu ilə yollarını kəsdi və aralarında böyük bir döyüş baş verdi. Nəhayət, Əhməd Cəlayir ilə Qara Yusif Hələb ordusunu qaçmağa məcbur etdilər. Bundan sonra da bir maneə və zəhmət qalmadığı üçün Anadolu diyarına gələrək məqamı uca İldırım Bəyazid asitanəsinə çatdılar. Gözlədiklərindən artıq riayət və etibar görən Sultan Əhməd Cəlayirə çoxlu iltifat edildi. Hətta Sultan Əhməd Cəlayir qızını şahzadə Mustafa Çələbiyə namizəd etdi. Qara Yusifə də son dərəcə hörmət göstərilib xatirəsi xoş tutuldu.

[1] Söhbət Osmanlı sultanı I Bəyaziddən gedir. 1389-1402-ci illərdə hakimiyyətdə olub. 1402-ci ildə Ankara yaxınlığında Teymurləng tərəfindən məğlub edilib əsir alınmışdır.